DÜNYA XƏBƏRLƏRİ

# Nepalda daşqından ölənlərin sayı 900-ü keçib

57 dəqiqə öncə




Daşqından sonra

Nepalda xilasedicilər daşqından sonra su elektrik stansiyalarının tunellərində qalan yüzlərlə insanı axtarır. Ölü sayı 903-ə çatıb, azı 3 min nəfər itkin düşüb.

Baş nazir **Balendra Şah** daşqını "görünməmiş və dağıdıcı təbii fəlakət" adlandırıb, dəymiş zərərin tam miqyasını müəyyənləşdirməyin hələ də çətin olduğunu bildirib.

**"Havanın əlverişsiz olmasına, relyefin çətinliyinə, risklərin qalmasına baxmayaraq, vətəndaşlarımızın həyatını xilas etmək üçün qətiyyətlə irəliləyirik"**, – o, bazar günü gecə Facebook-da yazıb.

Şah bildirib ki, mülki işçilər və könüllülərlə yanaşı, təxminən 21 min təhlükəsizlik əməkdaşı da xilasetmə əməliyyatlarına cəlb olunub.

Çin isə Qyironq rayonunda 16 nəfərin öldüyünü, 546 nəfərin itkin düşdüyünü açıqlayıb.

Pekinin məlumatına görə, Tibetdə, Nepal ilə əsas sərhəd-keçid məntəqələrindən birinin yaxınlığında 23 ölkədən 261 xarici vətəndaşdan xəbər yoxdur.

28 avqust

## Nepal-Tibet sərhədində torpaq sürüşməsinin yaratdığı göl daşır

Nepal-Çin sərhədində torpaq sürüşməsi nəticəsində yaranan göl cümə günü – avqustun 28-də daşmağa başlayıb. Xilasetmə işləri müvəqqəti dayandırılıb.

Çinin dövlət televiziyası CCTV bildirib ki, çinli xilasedicilər və nəqliyyat vasitələri təhlükəsiz əraziyə çəkilib. Nepalda isə xilasetmə əməliyyatları 90 dəqiqəlik dayandırılıb.

Təbii fəlakət avqustun 26-da bölgədə buzlağın çökməsi nəticəsində baş verib. Nepalda təsdiqlənmiş ölü sayı 469-a çatıb.

Nepal və Tibetdə ümumilikdə daha 1000-ə yaxın insan itkin düşüb. Buzlağın çökməsindən sonra nəhəng qaya, buz, palçıq və dağıntı kütləsi Himalay dağlarındakı çay sistemləri boyunca aşağıya hərəkət edib.

27.08.2026

## Nepalda və Çində daşqından sonra təxminən 1500 nəfər itkin düşüb

Nepal və Çinin Tibet bölgəsində daşqından sonra təxminən 1500 nəfər, o cümlədən 800-ə yaxın əcnəbi itkin düşüb. Qəfil daşqına Himalay dağlarında palçıq və qaya kütləsinin çaya uçması səbəb olub.

Polis ölənlərin sayının 165-i keçəcəyini bildirib.

Nepalda xilasedicilər sağ qalanların axtarışına helikopterlərlə çıxıblar. Ölkədə itkin düşmüş 826 nəfərdən təxminən 500-ü əcnəbidir.

Onların arasında Hindistan, ABŞ, Avstraliya, Britaniya və Kanada vətəndaşları var.

“Reuters” yazır ki, həqiqiliyi təsdiqlənmiş videolarda nəhəng su və dağıntı kütləsinin onlarla insanı apardığı görünür. Sel Nepalda evləri, yolları və enerji infrastrukturu obyektlərini də yuyub aparıb.

**“Birbaşa üstümüzə nəhəng palçıq axını gəlirdi”,** — Nepalda xəstəxanada müalicə olunan 68 yaşlı Keşav Prasad Baral deyib.

Dörd saat sonra helikopter Baralı təhlükəsiz yerə çatdırıb. **“Həyat yoldaşım hələ də palçığın altındadır. O, artıq yoxdur”,** – o əlavə edib.

Daşqından sağ çıxan başqa bir nəfər deyib ki, manqo ağacından yapışaraq xilas olub, işlədiyi ev gözünün qabağındaca yoxa çıxıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur